**Naxçıvan Muxtar Respublikasının ərazisində quş qripi xəstəliyinə qarşı keçirilmiş epizootoloji monitorinqin nəticələrinə dair məlumat**
**(26 ferval – 1 mart 2024)**

Cari ilin 26 fevral – 1 mart tarixlərində keçirilmiş tədbir epizootik risk əsasında müəyyən olunmuş təbiət əraziləri və su hövzələri ətrafı əhatə edib. Bu ərazilərdə ümumi müşahidələr aparılmaqla vəhşi quşlara klinik baxış keçirilib, xəstəliyə şübhəli və ya tələf olmuş quşlar aşkar edilməyib. Monitorinq çərçivəsində Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyət göstərən 6 sənaye əsaslı quşçuluq müəssisəsindən 60 baş, habelə şəhər və rayonlardan ümumilikdə 8 ailə təsərrüfatında saxlanılan müxtəlif növ 40 baş ev quşundan laborator müayinə üçün qan və yaxma nümunələri götürülüb, təsərrüfatlara ümumi baxış keçirilib və epizootoloji məlumatlar toplanıb.

Monitorinq zamanı ev quşlarından götürülmüş nümunələr Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun Mərkəzi Baytarlıq Laboratoriyasında müayinə edilib. Müayinələrin və ümumi epizootoloji müşahidələrin təhlili nəticəsində quş qripi xəstəliyinin törədicisi və xəstəliyə şübhəli klinik əlamətləri olan quş aşkar edilməyib. Ev quşlarından götürülmüş diaqnostik nümunələr Nyukasl xəstəliyinə görə də müayinə edilib və yoluxmaya şübhəli hal rast gəlinməyib.